# IV BÖLMƏ
# MALİYYƏ, VERGİ, UÇOT VƏ BANKLAR

UOT: 336.025:332.01:332.1

*Aygün Eldar qızı QULİYEVA,*
*Azərbaycan Kooperasiya Univesitetinin*
*prorektoru, iqtisad elmləri doktoru, professor əvəzi*

## AZƏRBAYCANDA REGİONAL SƏVİYYƏDƏ MALİYYƏ TƏMİNATI MEXANİZMLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*Xülasə*

Məqalədə Azərbaycanda regional səviyyədə maliyyə təminatı mexanizmlərinin gücləndirilməsi istiqamətləri tədqiq olunmuşdur. Bu məqsədlə regional səviyyədə inkişaf problemləri və maliyyə təminatı ilə bağlı çətinliklərin mahiyyəti açıqlanmışdır. Regionlarda iqtisadi inkişaf prosseslərin sürətləndirilməsində və sosial-iqtisadi problemlərin həllində maliyyə təminatının strateji rolu araşdırılmışdır. Maliyyə mexanizmlərinin işləkliyi və səmərəliliyi məsələlərinə diqqət yönəldilmişdir. Maliyyə xidmətlərinin strukturunun genişləndirilməsi məsələlərinin vacibliyi bildirilmişdir. Regionlarda daha çox tələb olunan maliyyə xidmətlərinin təşkili və əlçatanlığının əhəmiyyəti əsaslandırılmışdır. Maliyyə və kredit təşkilatlarının regionlarda səmərəli fəaliyyət göstərmələri üçün zəruri şəraitin yaradılması və stimullaşdırıcı mexanizmlərinin tətbiq edilməsinin vacibliyi verilmişdir. Regionların investisiya cəlbediciliyinin yüksək səviyyədə təşkili ilə maliyyə təminatı problemlərinin daha operativ həll edilməsi arasındakı bağlılıq açıqlanmışdır. Regionlarda investisiya siyasətinin daha çevik və optimal mexanizmlərinin hazirlanması və tətbiqinin əhəmiyyəti təhlil olunmuşdur. Regionlarda olan resursların təsərrüfat və biznes dövriyyəsinə cəlb edilməsində maliyyə təminatı və o cümlədən, investisiya fəaliyyətinin səmərəli təşkili üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.

***Açar sözləri: regional inkişaf, maliyyə təminatı, investisiya fəaliyyəti, maliyyə mexanizmləri, regionların maliyyə problemləri, regionların investisiya mühiti.***

### *Giriş*

Müasir dövrdə ölkə iqtisadiyyatının dayanaqlı və rəqabət qabiliyyətli olmasında bir çox amillər mühüm əhəmiyyət kəsb edir. Amma bunların sırasında regionların inkişafı, onların sosial-iqtisadi proseslərinin yüksək səviyyədə təşkil edilməsi, iqtisadi fəallığın artırılması vacib şərtlərdəndir. Belə ki, regionların inkişaf proseslərinin səmərəli təşkili ölkə büdcəsinin yükünü azaltmaqda və daha çox rəqabət qabiliyyətli müəsisələrin yaradılmasında önəmli amillərdəndir. Ancaq, gərək bu qeyd olunan fəaliyyət istiqamətləri üzrə maliyyə təminatı mexanizmlərinin işləkliyinə nail olunsun, eyni zamanda investisiya cəlbediciliyinin təmin oluması mühüm şərtlərdən hesab olunur.

Ölkənin bütün ərazisinin tarazlı və davamlı şəkildə inkişaf etdirilməsi, mərkəzi şəhərlərlə regionlar arasında sosial-iqtisadi inkişaf fərqlərinin maksimum aradan qaldırılması, sosial infrastrukturun yaradılması, hər bir regionun iqtisadi inkişaf və məşğulluq ənənələrinə uyğun gələn istiqamətlərdə sahibkarlığın inkişaf etdirilməsi, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin fəallığının təmin olunması, özünəməşğulluq layihələrinin həyata keçirilməsi, ümumiyyətlə iqtisadiyyatın və cəmiyyətin bütün sahələrində sosial-iqtisadi və ictimai fəallığın gücləndirilməsi bir çox mexanizmlərin və alətlərin fəal şəkildə tətbiqini şərtləndirir. Şübhəsiz, ilk sırada regionların hər birinin özlərinin prioritet hesab olunan və strateji səviyyədə qiymətləndirilən vəzifələri və hədəflərinə uyğun olaraq fəaliyyət mexanizmlərinin müəyyənləşdirilməsi və tətbiqi zəruridir. Bu





sırada kifayət qədər aktuallığı ilə ön planda olan məsələlərdən biri də regionlarda maliyyə-kredit təminatı problemləridir. Maliyyə-kredit mexanizmlərinin optimal olaraq işlənib hazırlanması, sahədəki mövcud problemlərin sistemli şəkildə və dərindən araşdırılması, öyrənilməsi və adekvat həlli yollarının müəyyənləşdirilməsi əsas şərtlərdəndir.

Regionların inkişafının sistemli şəkildə təşkil edilməsi, tələb olunan tədbirlərin və layihələrin həyata keçirilməsi proseslərində önəmli hallardan biri maliyyə-kredit və investisiyalarla bağlı prosedurların bürokratiyalardan uzaq olması, proseslərin şəffaflığının təmin edilməsi, hər bir xidmət növü üzrə zəruri informasiyanın əlçatanlığı və ümumilikdə maliyyə-kredit resurslarının özlərinin əlçatanlığı olduqca böyük əhəmiyyət kəsb edir. Maliyyə-kredit mexanizmləri regionda fəaliyyət göstərən təsərrüfat və kommersiya strukturları, fərdi sahibkarlar və fermer təsərrüfatları üçün kifayət qədər əlçatan olmalı və bu resursları əldə etmək prosedurları asanlığı ilə seçilməlidirlər. Bürokratik amillərin və baryerlərin aşkarlanması, aradan qaldırılması tədbirlərinin görülməsinə xüsusi diqqət yetirilməlidir. Heç də sirr deyildir ki, ölkənin maliyyə-kredit resursları əsasən Bakıda cəmlənmişdir və regionlarda ölkə banklarının, həmçinin maliyyə-kredit təşkilatlarının, fondlarının geniş şəbəkəsi mövcud deyildir. Düzdür, bir çox banklar regionlarda filiallar açmışlar və xidmətlər göstərirlər, amma bu xidmətlərin göstərilməsinə, icazə alınmasına uzunmüddət vaxt lazım olur, meyarlar isə kifayət qədər mürəkkəbdir, həlledici qərarlar isə yenə yerində həll olunmur, bankların mərkəzi strukturlarında baxılır, qərar verilir. Bir sözlə maliyyə-kredit resursları üzrə verilən qərarlar və təbiq olunan mexanizmlər heç də obyektiv reallığı özndə əks etdirmir, regionlardakı mövcud vəziyyəti ehtiva etmir və maliyyə-kredit resurslarına çıxış, əlçatanlıq xeyli aşağıdır.

**Regional səviyyədə maliyyə təminatı mexanizmlərinin gücləndirilməsi problemlərinə yanaşmalar və onların təhlili**

Dünya təcrübəsindən yanaşdıqda, ölkənin hər hansı bir regionunun kompleks və sistemli şəkildə inkişaf etdirilməsi, burada dayanıqlı və tarazlı inkişafın formalaşdırılması, gücləndirilməsi məsələləri mühüm əhəmiyyət kəsb edir və bunun üçün maliyyə təminatının gücləndirilməsi tədbirləri görülməlidir. Eyni zamanda, ölkəmizdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı spesifik məsələlərə daha çox önəm verildiyini nəzərə alsaq, xüsusilə maliyyə təminatının yaxşılaşdırılması, regionların inkişaf prioritetlərinin obyektiv olaraq dəyərləndirilməsi, mövcud resurslardan səmərəli istifadəyə nail olunması, son nəticədə isə dayanıqlı və tarazlı inkişaf modelinin işlənib hazırlanması, tətbiq edilməsi və təkmilləşdirilməsi məsələləri davamlı şəkildə maliyyə resurslarının və investisiyaların cəlbedilməsini tələb edir. Digər tərəfdən, əlbəttə, dünyada regionların inkişafı üçün müxtəlif dövlət dəstəyi mexanizmləri, modellər və yanaşmalar vardır. Məsələn, ABŞ və Qərbi Avropa ölkələrində regionların inkişafında daha çox müxtəlif layihələrdən, o cümlədən ağıllı texnologiyalardan, SMART layihələrdən və s. istifadə diqqət çəkir. Başlıca məqsəd isə regionun investisiya və maliyyə cəlbediciliyinin yüksəldilməsi, bu regionda həyata keçiriləcək layihələrə özəl və xarici investorların marağının yönəldilməsindən ibarətdir. Bu isə öz növbəsində maliyyə təminatı mexanizmlərinin işləkliyi və səmərəliliyi ilə birbaşa bağlıdır. Dayanıqlı və tarazlı inkişaf strategiyası və prioriteti dövlət tərəfindən daha çox və genişmiqyaslı tədbirlərin görülməsini, yüksək texnologiyaların regionlara transferi üçün müvafiq infrastrukturun yaradılmasını tələb edir. Bundan əlavə, regionların intensif inkişafına imkan verən tədbirlərin və layihələrin hazırlanması, bu layihələrin təşkilati, hüquqi və maliyyə aspektlərinin tənizmlənməsi, bir çox mühüm fəaliyyət istiqamətlərinə dövlət müdaxiləsinin zəruriliyi, o cümlədən maliyyə mexanizmlərinin formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı daha məqsədəuyğun, regionların sosial-iqtisadi və ənənəvi inkişaf xüsusiyyətlərinə uyğun olan mexanizmlərin hazırlanması və tətbiqi vacib şərtlərdəndir. Hər bir regionda təbii və iqtisadi resursların, məhsuldar qüvvələrin müəyyən hədləri, səmərəlilik sərhədləri və səviyyələri vardır.

Şəkil 1-də Azərbaycanın regionlarında maliyyə-kredit təminatı problemlərinin blok-sxemi verilmişdir.




*Şəkil 1. Azərbaycanın regionlarında maliyyə-kredit təminatı problemləri (müəllif tərəfindən hazırlanmışdır).*

Qeyd edək ki, maliyyə problemləri çözülmədən və dayanıqlı maliyyə mexanizmləri olmadan iri layihələrin, o cümlədən regional layihələrin, regional prioritetlərin praktiki olaraq reallaşdırılması, zəruri tədbirlərin görülməsi, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi və bunlarla bağlı problemlərin həll olunması, baryerlərin aradan qaldırılması, maliyyə resurslarının əlçatanlığın təmin edilməsi üçün əlavə tədbirlərin, infrastruktur və institusional tədbirlərin genişləndirilməsi, regionlarda maliyyə-kredit və bank təşkilatlarının, müəssisələrinin filiallar şəbəkəsinin yaradılması, maliyyə-kredit xidmətlərinin çeşidinin diversifikasiyalaşdırılması və bu qəbildən olan xidmətlərə əlçatanlığın təmin edilməsi xeyli çətin həll olunan məsələlər kimi xarakterizə edilirlər. Ölkəmizdə hazırkı reallıqlardan yanaşsaq, regionlarda ixtisaslaşdırılmış maliyyə fondları və birlikləri, sığorta və lizinq təşkilatları, bank olmayan maliyyə-kredit birlikləri, həmçinin sərbəst qərarlar vermək iqtidarında və səlahiyyətində olan banklar və bank filialları barmaqla sayılası qədərdir. Əsas etibarı ilə ayrı-ayrı bankların filialları fəaliyyət göstərirlər, amma bu bank bölmələri və struktur vahidləri sərbəst qərar vermək səlahiyyətində deyillər, bu isə öz növbəsində maliyyə mexanizmlərindən və alətlərindən operativ istifadə edilməsini çətinləşdirir, əlavə problemlər yaranır və layihələrin, biznes proseslərin, sahibkarlıq proseslərinin maliyyələşdirilməsi və kreditləşdirilməsi ilə bağlı məsələlər ləngiyir.

Dövlət tərəfindən aparılan tənzimləyici tədbirlər, İqtisadiyyat Nazirliyinin nəzdində yaradılan Milli Sahibkarlığa Kömək Fondunun güzəştli resursları regionlardakı problemləri, sosial-iqtisadi inkişafın intensivləşdirilməsi üçün tələb olunan maliyyə-kredit resurslarına fəal çıxışı tam olaraq təmin etmək iqtidarında deyildir. Bu resurslar ölkədə sosial-iqtisadi inkişafın dinamikliyindən irəli gələn yeni prioritet vəzifələrin və inkişaf hədəflərinin səviyyəsinə adekvat deyildir, digər tərəfdən isə bu qəbildən olan maliyyə resurslarını əldə etmək üçün tələb olunan meyarlara çox az sayda





sahibkarlıq və biznes subyektləri malik ola bilirlər. Real olaraq regionlarda maliyyə-kredit resurslarının asan və əlçatan mənbələri yoxdur, kommersiya bankları təsərrüfat işlərinə və real iqtisadiyyat sektoru sahələrinə resursları çətinliklə ayırırlar. Verilən kreditlər isə əsasən istehlak təyinatlıdır, sosial və ipoteka kreditləri ilə bağlıdır. Yəni, təkcə istehlak tələblərini təmin etməklə sosial-iqtisadi inkişafı sürətləndirmək qeyri-mümkündür. Əhalinin gəlirlərinin artması və mövcud əmək ehtiyatlarından səmərəli istifadə olunması üçün regionlarda rəqbət qabiliyyətli müəssisələr şəbəkəsi yaradılmalıdır. Təbii və iqtisadi resurslar səmərəli və məhsuldar şəkildə istifadə üçün təsərrüfat və kommersiya dövriyyəsinə cəlb edilməlidir, bunlar isə maliyyə-kredit resursları ilə bağlıdır və yeni investisiyaların intensiv cəlbini şərtləndirir.

Bu amillər baxımından ölkə regionlarının inkişafının maliyyə-kredit və investisiya təminatı mexanizmlərinin əsas xüsusiyyətləri şəkil 2-də verilmişdir.




*Şəkil 2. Regionların inkişafının maliyyə-kredit və investisiya təminatı mexanizmlərinin əsas xüsusiyyətləri (müəllif tərəfindən hazırlanmışdır).*

Regionların sabit və dayanıqlı inkişafı üçün bir çox amillər və elementlər mövcuddur, onların kompleks şəkildə baxılması və qiymətləndirilməsi vacib şərtlərdəndir. Maliyyə-kredit və investisiya təminatı problemləri çoxlu sayda mürəkkəb məsələlərin həllini şərtləndirir, dayanıqlı və məhsuldar mənbələrin formalaşdırılmasını tələb edir. Bundan başqa, maliyyə-kredit resurslarının yığılması, mobilizasiya edilməsi və səmərəli şəkildə bölüşdürülməsi problemləri də ölkə səviyyəsində strateji yanaşma tələb edən hallardandır [1].

Əslində maliyyə-kredit resursları nə qədər çox olsa belə, həmişə çatışmır, bu resurslar artdıqca onlardan səmərəli istifadə olunması problemləri də artır. Xüsusilə, regionlarda, nisbətən infrastrukturun zəif olduğu ərazilərdə, maliyyə-kredit təminatı mexanizmlərinin tətbiq edilməsi və in-

vestisiyaların yönəldilməsi üçün o qədər də cəlbedici olmayan şəraitdə bu problemləri həll etmək lazım gəlir. Regionlarda həyata keçirilən layihələr, aparılan geniş miqyaslı işlər böyük mənada dərindən araşdırmaların və əsaslandırılmaların aparılmasını vacib edir. Yəni, resurslar yönəldilərkən, kapital qoyuluşu qərarı və ya investisiyaların yatırılması ilə bağlı layihələrin təsdiq edilməsi proseslərində regionlardakı mövcud risklər, o cümlədən əməliyyat riskləri, çatışmayan hallar və bu istiqamətdə mühüm amillər dərindən öyrənilməli, həll mexanizmləri və alətləri müəyyənləşdirilməli, yüksək texnologiyaların imkanları real olaraq qiymətləndirilməli, nəzərdə tutulan maliyyə xidmətlərinin elektronlaşdırma potensialı əvvəlcədən maksimum proqnozlaşdırılmalı və onların tətbiqi ilə bağlı məsələlər xüsusi diqqət mərkəzində saxlanılmalıdır.

Postpandemiya dövrü bütün sahələrdə daha təkmilləşdirilmiş və yenilənmiş fəaliyyət mexanizmlərinin hazırlanmasını və tətbiqini şərtləndirir [2]. Bu hazırkı şəraitdə obyektiv reallıq və zərurət kimi baxılmalı, xüsusilə regional inkişafın təmin olunmasında tələb olunan mexanizmlərin tətbiqi məsələləri nəzərə alınmalıdır. Digər tərəfdən, son onillikdə dünya maliyyə sisteminin dərin transformasiyası, 2008-ci ilin sonlarından başlayan dünya maliyyə böhranının mənfi fəsadlarının təsirinin hələ də davam etməsi maliyyə-kredit sisteminin maksimum təkmilləşdirilməsini, o cümlədən investisiyalar üzrə mexanizmlərin investisiya layihələri iştirakçılarının maraqlarının qorunması şərti ilə yenilənməsi tələb olunur. Maliyyə-kredit mexanizmləri və tətbiq olunan alətlər kifayət qədər etibarlı olmalı, eyni zamanda bu resurslara ehtiyacı olanlar üçün həm də əlçatanlığı ilə fərqlənməlidir [3]. Təəssüf ki, əksər hallarda maliyyə-kredit təşkilatları qısamüddətli gəlirlər arxasınca qaçaraq, ilk növbədə yüksək faizlərdən ibarət istehlak kreditlərinə üstünlük verirlər və eyni təəssüf hissi ilə də demək olar ki, əhalinin əhəmiyyətli hissəsi bu və ya digər amildən asılı olaraq bu kreditlərdən fəal şəkildə istifadə edirlər. Regionlarda fəaliyyət göstərən sahibkarlıq və biznes subyektləri o qədər də iri təşkilatlar və ya müəssisələr deyildirlər və təxminən bu qəbildən olan bazar iqtisadiyyatı subyektlərinin 90 %-dən çoxu mikro, kiçik və orta sahibkarlıq subyektləridir, başqa sözlə, əsas üstünlük fərdi sahibkarlığa verilmişdir. Bunun başlıca səbəbi maliyyə-kredit və investisiya mexanizmlərinin onlar üçün o qədər də əlçatan olmamasıdır.

Eyni zamanda, təsərrüfatın genişləndirilməsi, biznesin və sahibkarlığın inkişaf etdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi imkanlarının da zəif olmasını nəzərə alsaq, regionlarda iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi tədbirlərində kompleksliliyin hələ də təmin olunmaması qənaətinə də gəlmək olar. Prioritetlər və hədəflər məlumdur, amma qarşıda duran problemlərin həll olunması, sosial-iqtisadi inkişaf proseslərinin intensivləşdirilməsi məqsədilə tələb olunan tədbirlərin və vəzifələrin həyata keçirilməsi üçün əlçatan maliyyə-kredit şəbəkəsinin formalaşdırılması vacib şərtdir. Regionlarda maliyyə-kredit şəbəkəsinin əlçatanlığı baxımından bu tədbirlərin görülməsini vacib sayırıq: 1) regionlarda maliyyə-kredit axınlarının hərəkəti, idarə edilməsi və istifadəsi üzrə şəbəkənin qurulması; 2) maliyyə-kredit xidmətlərinin infrastrukturunun və xidmət məntəqələrinin yaradılması; 3) maliyyə-kredit resurslarının təmərküzləşməsi və bölüşdürülməsi funksiyalarını yerinə yetirən maliyyə-kredit təşkilatlarının yaradılması; 4) maliyyə-kredit müəssisələrinin sərbəst balansa malik olmasının təmin edilməsi; 5) regionun iqtisadiyyat sahələrinin inkişaf xüsusiyyətlərinin potensialından qaynaqlanan layihələrin işlənib hazırlanması; 6) regionda təbii və iqtisadi resurslardan səmərəli və məhsuldar istifadəyə imkan verən maliyyə-kredit axını mühitinin yaradılması; 7) region əhalisinin gəlirlərinə adekvat olan maliyyə-kredit xidmətləri paketinin hazırlanması və tətbiq edilməsi; 8) regionda yaşayan həssas əhali qruplarının maraqlarını təmin edən maliyyə-kredit xidmətləri paketinin tətbiqi; 9) real iqtisadiyyat sahələrinin uzunmüddətli perspektivdə rentabelliyi nəzərə alınmaqla, sahibkarlıq və biznes subyektləri üçün maliyyə-kredit xidmətləri paketinin tətbiqi; 10) regionun maliyyə-kredit sisteminin gücləndirilməsi istiqamətində regional və beynəlxalq əməkdaşlığın gücləndirilməsi və s.

**Regionlarda investisiya cəlbediciliyini zəiflədən amillər və investisiya fəallığının yüksəldilməsi məsələləri**

Ölkə regionlarının perspektiv inkişafının planlaşdırılması, təşkili, maliyyələşdirilməsi problemləri kompleks yanaşmalarla bərabər, həm də bu istiqamətlərdə olan baryerlərin, süni amillərin dərindən öyrənilməsini, səbəblərinin araşdırılmasını və adekvat tədbirlərin görünməsini tələb edir. Layihələrin reallaşdırılması, prioritet vəzifələrin həyata keçirilməsi, bunlarla bağlı tədbirlərin icrası proseslərində dürüstlüyün və şəffaflığın təmin edilməsi, bürokratik həlqələrin və baryerlərin aradan qaldırılması tədbirləri görülməlidir. Xüsusilə, həyata keçirilən tədbirlərin və layihələrin səmərəlilik səviyyəsinin yüksək olması, nəzərdə tutulan qrafikə uyğun işlərin görülməsi, ayrılan maliyyə vəsaitlərindən təyinatı üzrə, həm də qənaətlə istifadə olunması, istehsalat və maliyyə intizamına ciddi şəkildə əməl edilməsi vacib şərtlərdəndir.

Maliyyə tutumlu tədbirlərin görülməsində və bununla əlaqədar maliyyə resurslarından istifadə olunmasında işlək mexanizmlər tətbiq edilməli, nəzarət sistemi güclü olmalı və əməliyyatların dürüstlüyü təmin edilməli, müxtəlif risklərin aradan qaldırılması diqqət mərkəzində saxlanılmalıdır. Xarici investorlar digər ölkələrdə investisiyalar yönəldərkən və kapital yatırarkən ölkə qanunvericiliyinin adekvatlığı, beynəlxalq meyarlar və prinsiplərə cavab verməsi makroiqtisadi və makromaliyyə sabitliyi, pul kredit siyasətinin əsas müddəaları və istiqamətləri, milli valyutanın sabitliyi, maliyyə-kredit infrastrukturunun səviyyəsi, maliyyə bazarının inkişafı və s. amillərlə bərabər, eyni zamanda iqtisadi rayonlarda müvafiq şəraitin olması, investisiya cəlbediciliyi meyarlarına cavab verməsi, iqtisadi rayonda maliyyə-kredit infrastrukturunun mövcudluğu, resurslardan, o cümlədən əmək ehtiyatlarından və məhsuldar qüvvələrdən istifadə olunmasında səmərəlilik səviyyəsi, maliyyə təminatı ilə bağlı dövlətin tətbiq etdiyi mexanizmlər, investisiyaların hərəkəti və idarə edilməsi formaları, investisiya fəaliyyətinin tənzimləyici hüquqi əsasları, regionların investisiya fəallığı dərəcəsi və bütövlükdə investisiya proseslərinə münasibət mühüm əhəmiyyət kəsb edir. Regionlarda investisiya cəlbediciliyinin yüksəldilməsi heç də həmişə asan başa gəlmir [4]. Belə ki, çoxlu sayda problemlər və süni baryerlər investisiyaların yatırılmasına, onlardan təyinatı üzrə səmərəli istifadə edilməsinə imkan vermir. İnvestisiyaların məqsədi və hədəfləri qarşıda duran vəzifələrin yerinə yetirilməsi, istehsalın və ya xidmətin genişləndirilməsi, daha çox rəqabət qabiliyyətli məhsullar istehsal olunması və xidmətlərin göstərilməsi, ixrac potensialının yaradılması, istehlak bazarının strukturunun genişləndirilməsi və həcminin artırılması, istehlakçıların tələb və təkliflərinə uyğun daha keyfiyyətli mal və xidmətlərin təşkili və s. ibarətdir. Buna görə də tətbiq olunan mexanizmlərin işləkliyinə və nəzərdə tutulan tədbirlərin səmərəliliyinə mane olan amillər diqqətlə öyrənilməli, müvafiq nəticələr çıxarılmalı və süni baryerlərin aradan qaldırılması tədbirləri görülməlidir.

Azərbaycanda regionlarda investisiya cəlbediciliyinin artırılmasına mane olan amilləri bu cür ümumiləşdirmişik: 1) regionlar üzrə investisiya cəlbediciliyi strategiyasının işlənib hazırlanmaması və adaptivliyinin təcrübədən keçirilməməsi; 2) regionlar üzrə investisiya fəaliyyətinə dair optimal vahid konsepsiyanın olmaması; 3) regionlarda investisiya fəaliyyətinin təşkili və icra tədbirlərinin pərakəndəli vəziyyətdə olması; 4) dövlət büdcəsindən iqtisadi rayonların sosial-iqtisadi inkişafına yönəldilən vəsaitlərin - əslində birbaşa dövlət investisiyalarının istifadə proseslərinin qeyri-şəffaflığı; 5) regionlarda dövlət tərəfindən əsas kaptal qoyuluşu təyinatı olan vəsaitlərin xərclənməsi üzrə keçirilən tenderlərin qeyri-şəffaflığı; 6) regionlarda müstəqil balansa malik maliyyə-kredit təşkilatlarının olmaması və ya həddindən ziyadə azlığı; 7) regionlarda istehsal və maliyyə-kredit, investisiya infrastrukturunun zəifliyi; 8) regionlarda fəaliyyət göstərən müəssisə, firma və kompaniyaların fəaliyyətlərindəki qeyri-şəffaflıq; 9) regionlarda mövcud təbii və iqtisadi resurslar üzrə müxtəlif cəlbedici investisiya layihələrinin azlığı; 10) regionlarda investisiya mühitinin yaradılması və xarici investorların, investisiyaların cəlbedilməsi istiqamətində peşəkar mütəxəssislərin və kadrların çatışmaması və s.

İnvestisiyaların formalaşması, bölüşdürülməsi və istifadəsi prosesləri kifayət qədər mürəkkəbdir və spesifik cəhətləri ilə fərqlənir [5]. Xüsusilə, xarici investisiyaların cəlb olunması mexanizmləri, o cümlədən hələ təbii və iqtisadi resursları dərindən öyrənilməmiş, iri investisiya layihələri üçün lazımı qədər hesabatları aparılmamış rügionlara investisiyaların cəlb edilməsi məsələləri ayrıca yanaşmaları, daha fərqli mexanizmlərin hazırlanmasını şərtləndirir [6; 7]. Dünyanın müasir iqtisadi inkişaf prosesləri, iqtisadi güc mərkəzlərinin fəaliyyətindəki dəyişikliklər, ölkə qrupları,

birlikləri, həmçinin regional səviyyədə ölkələr arasında əlaqələrin yeni formatlara keçməsi, ma- liyyə-investisiya resurslarının ayrılması və yönəldilməsində müəyyən çətinliklərin yaranması hər bir investisiya layihəsi üzrə uzunmüddətli danışıqların aparılmasını, həyata keçiriləcək layihələrin daha obyektiv araşdırılması və qiymətləndirilməsini tələb edir. Bizim ölkəmizin misalında baxsaq, əlbəttə bir qrup özəlliklər diqqətimizi cəlb edir. Artıq 2004-cü ildən başlayaraq regional sosial- iqtisadi inkişaf üzrə icra olunmuş və icrası davam edən məqsədli dövlət proqramlarında hər bir regionunda strateji əhəmiyyət kəsb edən və prioritet layihələrin, infrastruktur obyektlərinin maliy- yələşdirilməsi mənbələri əvvəlcədən müəyyənləşdirilir və demək olar ki, bu mənbənin əsas isti- qaməti dövlət büdcəsidir [8].

Bununla əlaqədar qeyd etmək lazımdır ki, təkcə dövlət büdcəsi hesabına ölkə regionunlarının sosial-iqtisadi inkişafının maksimum sürətli təşkilinə nail olmaq uzun vaxt apara bilər [9; 10]. Düzdür, dövlət tərəfindən büdcə vəsaitləri hesabına regionlarda məktəblər, uşaq baxçaları, xəs- təxanalar və digər səhiyyə obyektləri, idman qurğuları, o cümlədən olimpiya kompleksləri, mədə- niyyət ocaqları, yollar, körpülər və s. tikilir, istifadəyə verilir və bütün bunlar həm də planlı şəkildə edilir. Lakin, dövrün tələbləri və çağırışları yenilənib, daha intensiv və təsirli tədbirlərin görülməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, sosial-iqtisadi inkişaf proseslərinin intensivliyinin artırıl- ması, regionlarda olan təbii və iqtisadi resurslardan daha səmərəli və məhsuldar istifadə olunması, əhalinin iqtisadi fəallığının genişləndirilməsi, mövcud əmək resurslarından və məhsuldar qüvvələr- dən yetərincə bəhrələnməsi tədbirlərinin həyata keçirilməsi üçün əlavə maliyyə mənbələrinə və investisiya resurslarına ehtiyac vardır. İnvestisiyaların alternativ mənbələrinin formalaşdırılması və inkişaf etdirilməsi problemləri kompleks və sistemli yanaşmanı şərtləndirir. Şübhəsiz ilk növbədə ölkədə mövcud investisiya axınlarının potensialından səmərəli istifadə olunması imkanları araşdırıl- malı və qiymətləndirilməlidir [11]. Regionlardakı prioritet və strateji layihələrdə yerli investorların, investisiya imkanları olan şirkət və kompaniyaların fəal iştirakı təmin olunmalı və bu proseslərin təşkili mexanizmləri çevik, şəffaf və iştirakçılar üçün maraqlı lmalıdır [12].

Bundan əlavə, yerli investorların investisiya yatırmaq imkanlarını özündə əks etdirən analitik baza formalaşdırılmalı və potensialı layihələrlə bu imkanlar uzlaşdırılmalıdır. Digər tərəfdən, mə- lumdur ki, hazırkı şəraitdə ölkəmizdə yüksək investisiya potensialına malik yerli şirkətlər hələ təzə-təzə formalaşmağa başlayıb və bunun üçün müəyyən zaman lazımdır. Son on il ərzində ölkə valyutasının – manatın dünya bazarlarında baş verən qlobal maliyyə böhranı və digər amillərdən, eyni zamanda neftin qiymətinin bir neçə dəfə aşağı düşməsindən yaranan təsirdən ciddi təzyiqlərə malik qalması, nəticədə 2015-ci ildə ikiqat devalvasiyanın baş verməsi səbəbindən, ölkə şirkət- lərinin investisiya yatırmaq potensialnın güclənməsi imkanları xeyli məhdudlaşmışdır. Əlbəttə, bütün bunlar davamlı tədbirləri zəruri edir, maliyyə xidmətlərinin diversifikasiyalaşdırılması, ma- liyyə bazarının inkişaf etməsi və onun mühüm seqmentlərindən biri olan investisiya fəaliyyətinin gücləndirilməsi vacib şərtlərdəndir. İcra olunmaqda olan strateji yol xəritələrində də bu öz əksini tapmışdır. Ölkə Prezidentinin 6 dekabr 2017-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş digər bir mühüm sənəddə "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə maliyyə xidmətlərinin genişləndirilməsi, diversifikasiyalaşdırılması, maliyyə bazarı- nın inkişaf etdirilməsi, həmçinin investisiyaların axınının sürətləndirilməsi, xüsusilə qeyri-neft sektoruna və regionların iqtisadiyyatına investisiyaların cəlb edilməsi problemlərinə dair yaxın, orta və uzunmüddətli baxışlar, hədəflər müəyyənləşdirilmişdir [13].

### *Nəticə*

Beləliklə, regionlar səviyyəsində maliyyə-kredit mexanizmlərinin optimal olaraq işlənib hazır- lanması, bu istiqamətdəki mövcud problemlərin sistemli şəkildə və dərindən araşdırılması, öyrə- nilməsi və adekvat həlli yollarının müəyyənləşdirilməsi əsas şərtlərdəndir. Maliyyə-kredit prob- lemlərini həll etmədən regionun sosial-iqtisadi inkişaf proseslərinin dayanıqlı və davamlı şəkildə təmin edilməsi, tələb olunan investisiya-innovasiya layihələrinin həyata keçirilməsi, ərazinin in- frastruktur baxımından inkişafına təkan verilməsi, yerli resursların istehsal və kommersiya döv- riyyəsinə cəlb edilməsi tədbirlərinin görülməsi, ümumilikdə iqtisadi fəallığın artırılması, əhalinin





yaşayış səviyyəsinin və gəlirlərinin yüksəldilməsi xeyli çətin görünür. Bundan əlavə, regionlarda investisiya fəallığının təmin edilməsi üçün, adekvat investisiya cəlbediciliti mühiti yaradılmalıdır. Ümümilikdə, ölkəmizdə regional səviyyədə maliyyə təminatı mexanizmlərinin gücləndirilməsi məqsədilə bir sıra məsələlərə daha diqqətlə yanaşılması tələb olunur:

- regional səviyyədə dünya təcrübəsinə uyğun olaraq maliyyə təminatı infrastrukturu yaradıl- malı və maliyyə resurslarının toplanması, bölüşdürülməsi və səmərəli şəkildə istifadəsi mexanizm- ləri tətbiq olunmalıdır;
- regionlarda maliyyə xidmətlərinə, xüsüsi ilə siğorta xidmətlərinə əlçatanlıq imkanları yara- dılmalı və maliyyə xidmətlərinin tələb olunan strukturunun təşkili təmi edilməlidir;
- ölkə regionlarının investisiya cəlbediciliyinin artırılması və xarici inverstorlarının daha fəal gəlməsinin stimullaşdırılması tətbirləri görülməli, zəruri dövlət dəstəyi mexanizmlərinin tətbiqi həyata keçirilməlidir və s.

## ƏDƏBİYYAT


1. Ataşov B.X. Maliyyə bazarları. Bakı, "Kooperasiya nəşriyyatı", 2016. -456 s.
2. Əliyev Ş.T. Pandemiya və postpandemiya dövründə Azərbaycanda iqtisadi təhlükəsizliyin aktual məsələləri // "Xəbərlər", AMEA İİ, №5. 2020.-s.5-12.
3. Guliyeva, A.E. Problems of financial and investment support modelling of the regional social and economic development// WSEAS Transactions on Business and Economics, Volume 17, 2020, Grecce, Art. #72, p. 741-752.
4. Rayonların investisiya reytinqi. İqtisad İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. Bakı, 19 aprel 2017 il – 8 s. http://ecoreform.az.
5. İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 18 yanvar 2018-ci il.
6. Гюльалиев М., Алиев Р. Динамика и отраслевая структура иностранных инвестиций, направленных в экономику Азербайджана // Экономический Вестник Донбасса, №3 (41), 2015, С. 67-74.
7. Смаглюкова Т.М. Методика комплексной оценки инвестиционной привлекательности регионов с учетом их отраслевой специализации// Журнал Проблемы современной экономики, №3(23), 2007.- с.-51-59.
8. Гулиева, А.Э. Основные направления и инструменты совершенствования государствен- ных программ регионов Азербайджана // Региональная экономика: теория и практика, Москва, 2019., т. 17, вып.9, стр.1694-1708.
9. Şəkərəliyev A., Şəkərəliyev Q. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, "Turxan", NPB, 2016.-536 s.
10. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt Dövlət Universiteti, 2018.-384 s.
11. Vəlimməmədov M.Ş. Azərbaycanda investisiya mühiti və dövlət tənzimlənməsinin müasir vəziyyəti// Azərbaycan İqtisadi və Sosial Araşdırmalar Jurnalı. Volume 4, Number 4/İl 4, Say 4, 2017.- P. 25-34.
12. İnvestisiya fondları haqqında Azərbaycan Respublikasinin Qanunu. Bakı şəhəri, 22 oktyabr 2010-cu il. № 1101-IIIQ.
13. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmiş- dir. Bakı, 2016.-59 s.

*Айгюн Эльдар гызы Гулиева*
*доктор экономических наук,*
*Азербайджанский Университет Кооперации,*

**Направления усиления механизмов финансовой обеспеченности на региональном уровне в Азербайджане**

***Резюме***

В статье исследованы направления усиления механизмов финансовой обеспеченности на региональном уровне в Азербайджане. С этой целью раскрыта сущность проблем развития и финансовой обеспеченности на региональном уровне. Исследована стратегическая роль финансовой обеспеченности в решении социально-экономических проблем и ускорении процессов экономического развития в регионах. Обращено внимание на работоспособность и вопросы эффективности финансовых механизмов. Отмечена важность вопросов усиления структуры финансовых услуг. Обоснована актуальность эффективной организации и доступности финансовых услуг в регионах. Дана значимость применения стимулирующих механизмов и создания необходимых условий для эффективного функционирования финансовых и кредитных организаций в регионах. Раскрыта роль более эффективного решения проблем финансовой обеспеченности в условиях привлекательности инвестиционной среды в регионах. Анализированы разработка и реализация более оперативных и оптимальных механизмов инвестиционной политики в регионах. В конце статьи подготовлены рекомендаций и даны предложения по повышению эффективности финансовых механизмов и инвестиционной деятельности для активного привлечения ресурсов в производственных процессах и бизнес-оборотах в регионах страны.

***Ключевые слова: региональное развитие, финансовая обеспеченность, инвестиционная деятельность, финансовые механизмы, финансовые проблемы регионов, инвестиционная среда регионов.***

***Aygun Eldar Guliyeva***
***Doctor of Economics,***
***Azerbaijan University of Cooperation,***

**Directions for strengthening financial sustainability-mechanisms at the regional level in Azerbaijan**

***Summary***

The directions of strengthening financial sustainability mechanisms at the regional level in Azerbaijan are investigated in the article. The essence of the problems of development and financial sustainability at the regional level is considered for this purpose. The strategic role of financial sustainability in solving socio-economic problems and accelerating economic development processes in the regions is studied. Attention to the efficiency and effectiveness of financial mechanisms is drawn. The importance of strengthening the structure of financial services is noted. The relevance of effective organization and availability of financial services in the regions is justified too. The importance of using incentive mechanisms and creating the necessary conditions for the effective functioning of financial and credit institutions in the regions is investigated then. The role of more effective solution of problems of financial security in conditions of attractiveness of investment environment in regions is disclosed. The development and implementation of more rapid and optimal investment policy mechanisms in the regions are analyzed. Recommendations and proposals to increase the effectiveness of financial mechanisms and investment activities to attract resources in production processes and business turnover in the regions of the country are given at the end of the article

***Key words: regional development, financial sustainability, investment activities, financial. mechanisms, financial problems of regions, investment environment of regions.***